# 2010-cu il yanvarın 26-da Əl-Küveyt şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş»in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1. 2010-cu il yanvarın 26-da Əl-Küveyt şəhərində imzalanmış «Azərbaycan Respublikası Hökuməti və Küveyt Dövləti Hökuməti arasında qadın, uşaq və ailə məsələləri sahəsində əməkdaşlıq haqqında Saziş» təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Küveyt Dövləti Hökumətini xəbərdar etsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 15 mart 2010-cu il***

***№ 800***

***«Respublika» qəzetində dərc edilmişdir (16 mart 2010-cu il, № 58) («VneshExpertService» LLC).***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (21 mart 2010-cu il, № 64) («VneshExpertService» LLC).***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2010-cu il, № 3 (153), maddə 228) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*